# Bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi və onunla bəzi məsələlər haqqında danışdı və dedi: “Allah və sən istədin”. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: “Sən məni Allahla bərabərmi etdin? De ki: “Yalnız Allah istədi (oldu).”

İbn Abbasdan (Allah onların hər ikisindən razı olsun) belə rəvayət edilir: Bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi və onunla bəzi məsələlər haqqında danışdı və dedi: “Allah və sən istədin”. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: “Sən məni Allahla bərabərmi etdin? De ki: “Yalnız Allah istədi (oldu).”

[İsnadı həsən olan] [İbnu Məcə, Ən-Nəsai Əl-Kubrada və Əhməd rıvayət etdilər]

Bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib onunla özünə aid bir məsələdə danışdı, sonra dedi: "Allah və sən istədin (oldu)". Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onun bu sözünü inkar etdi və ona bildirdi ki, məxluqun istəyini, Allahın istəyinə "və" ədatı ilə bağlamaq- yəni birlikdə işlətmək- kiçik şirkdir və müsəlmanın bunu söyləməsi icazəli deyildir. Sonra onu doğru sözə yönəltdi: “Yalnız Allah istədi”. Beləliklə o, istəməkdə Allahı təkləşdirir və heç bir bağlayıcı ədatı ilə Allahın istəyinə bir kəsin istəyini bağlamır.

https://sunnah.global/hadeeth/az/show/5928